Oruç Dadaşi Elman

## Sənsən

Hər gün ürəyin çaldığı nəbzin səsi sənsən
Aydın açılan al günəşin görməsi sənsən

Zülmət gecənin ay ışığından doğulubsan
İsmət gözünün sevgi izindən nəsi sənsən

Can pərdəsinin naz kökünün isti qanından
Eşqin nəfəsiylən döyünən zil - pəsi sənsən

Canan adının can dəyərin sən yaşadırsan
Könlümdə məhəbbət yazının v'ədəsi sənsən

Sonsuz qədəri bağlılığım var sənə ey can
Başlandığımın hər olu, hər bir bəsi sənsən

Bir doğru məhəbbət qəzəlin can varağında
Yazmaqda qələm könlünə eşq ayəsi sənsən

Gülşəndə ürək güllərinin qırmızı rəngi
Bildirmədədir əhdimizin laləsi sənsən

İllər boyu ömrümdə olan qəm gecələrdən
Bir şən səhərin gəlməsinin ertəsi sənsən

Qaldım bu qalın sətri yazan cövhər içində
Yaddaşda qələm kölgəsinin incəsi sənsən

*Elman* baxışın dardan alıb dərdə salarkən
Olsun ki yazıq könlümə eşqin kəsi sənsən